HEYDƏR ƏLİYEV
FONDU

2009
1079

T3(2A)
Ə65

# HEYDƏR ƏLİYEV FONDU

[Fondun fəaliyyəti haq.]

85880

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

BAKI - 2009

ARXIV

Ч3(2А)-8 + Ч-3(2А)-8 + Ф3(2А)117









Azərbaycanın müasir tarixinin çox önəmli bir dövrü Heydər Əlirza oğlu Əliyevin adı ilə bağlıdır. Onun hakimiyyətdə olduğu illər xalqın yaddaşında Vətənə və insanların mənafeyinə xidmət nümunəsi kimi yaşayır.

Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Azərbaycanın Naxçıvan şəhərində anadan olmuşdur. 1941-ci ildən dövlət orqanlarında çalışmış, general-mayor rütbəsinə qədər yüksəlmişdir. 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilmiş, uzun müddət respublikanın rəhbəri olmuşdur.

1982-1987-ci illərdə Sov. İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işləmişdir.

1991-ci ildə Azərbaycana qayıdan Heydər Əliyev 1993-cü və 1998-ci illərdə keçirilən prezident seçkilərində Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Heydər Əliyev 2003-cü il dekabrın 12-də vəfat etmişdir.

Müdrik siyasətçi, dahi şəxsiyyətin zəngin irsinin öyrənilməsi, təbliği, milli dövlətçilik ideyalarının həyata keçirilməsi məqsədi ilə 2004-cü ildə yaradılan Heydər Əliyev Fondu Azərbaycanın ictimai həyatında fəal mövqe tutur.



*Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyeva*

Heydər Əliyev Fondu qeyri-hökumət təşkilatı kimi, yeni cəmiyyət quruculuğuna, gənc nəslin hərtərəfli və dinamik inkişafına öz töhfəsini verməkdədir. Çoxşaxəli fəaliyyət istiqamətlərini uğurla birləşdirən Fondun Prezidenti Azərbaycanın birinci xanımı, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyevadır.

## Fondun məqsədləri:

- ulu öndər Heydər Əliyevin həyata keçirdiyi dövlətçilik siyasətinin öyrənilməsinə və təbliğinə dəstək vermək;
- ölkənin inkişafına və xalqımızın rifahına xidmət edən genişmiqyaslı proqram və layihələrin reallaşmasına kömək etmək;
- elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekologiya sahələrinə aid proqram və layihələr hazırlayıb həyata keçirmək;
- sosial problemlərin həllinə yardımçı olmaq, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək göstərmək;
- uşaq müəssisələrinin infrastrukturlarını inkişaf etdirmək;
- insanların yaradıcı potensialının, bilik və bacarıqlarının aşkara çıxarılmasına, qabiliyyətlərini göstərməsinə, inkişaf etdirməsinə yardım etmək;







- Azərbaycan mədəniyyətinin geniş təbliği və qorunması ilə bağlı aparılan işlərə kömək etmək, milli mənəvi dəyərlərin qorunub saxlanılmasına dəstək vermək;
- Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq;
- konfrans və seminarlar təşkil etmək, elmi tədqiqatların aparılmasına yardım göstərmək, xarici ölkələrin tanınmış elmi-tədqiqat mərkəzləri ilə alimlərin mübadiləsini təşkil etmək;
- respublikanın və xarici ölkələrin fondları, QHT-ləri, ictimai təşkilatları ilə əməkdaşlıq etmək, onlarla birgə layihələr həyata keçirmək.







# Təhsil sahəsi

## "Uşaq evləri və internat məktəblərinin inkişafı" Proqramı

Respublikanın bütün uşaq tərbiyə müəssisələrində aparılan monitorinqlərin nəticəsi olaraq, problemlərin həllinə yönələn fəaliyyətdə bir neçə əsas istiqamət müəyyən edilmişdir.

Proqram çərçivəsində respublika üzrə 31 uşaq müəssisəsi əsaslı şəkildə təmir edilmiş, yeni avadanlıqla təchiz olunmuş, əlavə yardımçı binalar inşa olunmuş və kommunal şərait yaxşılaşdırılmışdır.









Müəssisələrdə kitabxanalar yaradılmış, onlar müvafiq tədris vəsaiti və bədii ədəbiyyatla təmin olunmuş, əksər uşaq evləri və internat məktəblərində kompyuter avadanlığı quraşdırılmış, sinif otaqları interaktiv təhsil üçün uyğunlaşdırılmışdır. Heydər Əliyev Fondu yaşı 18-dən yuxarı olan, uşaq evlərini tərk etmiş yeniyetmələrin mənzil şəraitinin yaxşılaşdırılmasını təmin edir.









1 saylı uşaq evinin yay düşərgəsi











Fondun himayəsi altında olan bütün uşaq müəssisələrinin musiqi dərnəkləri yeni musiqi alətləri ilə zənginləşdirilmiş, rəqs kollektivləri geyim və zəruri vəsaitlə təmin edilmişdir. Fiziki qüsurlu uşaqlar üçün nəzərdə tutulmuş müəssisələrdə zəruri texniki avadanlıq quraşdırılmış, onların nəzdində fəaliyyət göstərən musiqi məktəbləri musiqi alətləri ilə zənginləşdirilmişdir.









Yeniyetmələrin milli adət-ənənələrə və mədəniyyətə bağlı ruhda böyüməsinə kömək məqsədi ilə kütləvi tədbirlər, festivallar, müsabiqələr keçirilir, özfəaliyyət kollektivlərinə dəstək verilir.





## "Yeniləşən Azərbaycana yeni məktəb" Proqramı

Proqramın əsas məqsədi təhsil sahəsində mövcud olan problemlərin həllinə kömək etmək, ölkə miqyasında müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaq, yerli və xarici şirkətlərin, beynəlxalq təşkilatların bu sahədə birgə əməkdaşlıq imkanlarını müəyyənləşdirərək layihələrin reallaşmasına yönəltməkdir.















Proqram çərçivəsində 2005-2009-cu illər ərzində ölkənin ən müxtəlif bölgələrində 75 mindən artıq şagird yerlik 283 məktəb binası inşa olunmuş və yenidən qurulmuşdur. Bu məktəblərin hər birində laboratoriya, kitabxana, yeməkxana, kompyuter otaqları, emalatxana, idman zalları, geniş meydançalar və ayrıca istilik sistemi vardır.





Əzizbəyov rayonu Türkan qəsəbəsi 256 saylı orta məktəb



İmişli rayonu N.Abışov adına Qaralar kənd orta məktəbi




Əzizbəyov rayonu Şüvəlan qəsəbəsi F.Fərhadoğlu adına 230 saylı orta məktəb


əvvəl


sonra


əvvəl


sonra


əvvəl


sonra


əvvəl


sonra









## "Təhsilə dəstək" layihəsi

Heydər Əliyev Fondu hər il "Təhsilə dəstək" layihəsi çərçivəsində Ermənistanın Azərbaycana təcavüzü nəticəsində daimi yaşayış yerlərini tərk etmiş qaçqın, məcburi köçkün ailələrindən olan birinci sinif şagirdlərinə çanta və məktəb ləvazimatı hədiyyə edir. Gürcüstanda yaşayan azərbaycanlı birinci sinif şagirdlərinə, Qax, Zaqatala və Balakən rayonlarında tədrisin gürcü dilində aparıldığı məktəblərə hər il yeni dərslik və tədris ləvazimatları göndərilir.





Heydər Əliyev Fondunun "Təhsilə dəstək" layihəsi tək Azərbaycanda deyil, bir sıra xarici ölkələrdə də həyata keçirilir. Layihə çərçivəsində Pakistanda qızlar üçün yeni orta məktəb binasının inşası mühüm yer tutur. 2005-ci ildə Pakistanda böyük dağıntılara səbəb olmuş zəlzələdən sonra Müzəffərabad şəhəri Rara ərazisindəki qızlar üçün










məktəb tam yararsız vəziyyətə düşmüşdü. Fond tərəfindən qısa müddətdə inşa edilən 650 şagird yerlik yeni təhsil ocağında müasir tələblərə cavab verən 10 xüsusi sinif otağı, laboratoriyalar, fənn kabinetləri, kitabxana, kompyuter otağı, idman meydançası vardır.





2008-ci ilin iyununda Heydər Əliyev Fondunun təşəbbüsü ilə Gürcüstanın Dmanisi rayonunda yeni elmi-tədris mərkəzinin binası inşa edilərək istifadəyə verilmişdir.

Bir sıra xarici təşkilat və şirkətlərin (Rusiyanın "Puşkin kitabxanası" Fondu, "World Vision" ("Dünyaya baxış"), "JP Morgan", "ExxonMobil") Fonda hədiyyə etdikləri müxtəlif adda 10 mindən çox kitab ölkənin ali və ümumtəhsil məktəblərinə, uşaq evləri və internat məktəblərinin kitabxanalarına paylanılmışdır.











2007-2008-ci illərdə layihə çərçivəsində Heydər Əliyev Fondu tərəfindən əyani vəsait kimi 140 adda 1 milyon 400 min ədəd plakat hazırlanaraq respublikanın ümumtəhsil məktəblərinə paylanılmışdır.

Layihə çərçivəsində 2005-2009-cu illər ərzində respublika üzrə 11 uşaq bağçası əsaslı təmir olunaraq müasir avadanlıqla təchiz edilmişdir. Fond tərəfindən 2008-ci ildə məktəbəqədər müəssisələr üçün nəzərdə tutulmuş müxtəlif mövzulu plakatlar, multimedia diskləri, tablolar, oyun və digər əyani vəsait aidiyyəti üzrə paylanılmışdır.





## Anatomiya




## Astronomiya



## Zoologiya




## Həndəsə




## Kimya




## Gənclərin çağırışaqədərki hazırlığı





# Səhiyyə sahəsi

## "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsi

Heydər Əliyev Fondu, Azərbaycan Diabet Cəmiyyəti və Danimarkanın "Novo Nordisk" şirkətinin birgə əməkdaşlığı çərçivəsində ölkədə diabet xəstəliyinə düçar olmuş 14 yaşınadək uşaqlar 2004-2009-cu illər ərzində müntəzəm olaraq insulin preparatları və şpris-qələmlərlə təmin edilmişlər.

BMT-nin təşəbbüsü ilə 2007-ci ildə Heydər Əliyev Fondu Dünya Diabet günü kampaniyasına qoşulmuşdur. BMT-nin qətnaməsinə əsasən, təşkilata üzv olan ölkələrdə noyabrın 14-ü Dünya Diabet günü kimi qeyd edilir. Təşkilatın rəmzi olan mavi rəng bütün millətlərin başı üstündəki səmanı əks etdirir və bu aksiyanın keçirildiyi 155 ölkədə şəhərlərin möhtəşəm binaları məhz bu rəngə boyanır. Bu xəstəliyin əhatə dairəsinin artması haqqında əhalini xəbərdar etmək məqsədi ilə Fondun binası 2007-ci ildə noyabrın 13-dən 15-dək mavi rənglə işıqlandırılmışdır.







## "Talassemiyasız həyat naminə" layihəsi

Azərbaycanda yayılan talassemiya xəstəliyinin qarşısının alınması məqsədi ilə 2005-ci ilin fevralında həyata keçirilməyə başlanmış layihə çərçivəsində Bakıda müasir avadanlıqla təchiz olunmuş Talassemiya Mərkəzi inşa edilmişdir.









Proqram talassemiyadan əziyyət çəkən insanların təhlükəsiz və keyfiyyətli qanla təminatı üçün könüllü donor xidmətinin inkişaf etdirilməsini, əhalinin maarifləndirilməsini, prenatal diaqnostika üsulu ilə xəstəliyin proqnozlaşdırılmasını, talassemiya ilə mübarizə aparan bir sıra dövlətlərlə əməkdaşlığın genişləndirilməsini və ölkədə yüksək ixtisaslı kadrların hazırlanmasını nəzərdə tutur.





Talassemiya Mərkəzi



## Psixo-nevroloji Uşaq Mərkəzi

Uşaqların müayinə və müalicəsi üçün geniş mərkəzin inşasının zəruri olduğunu nəzərə alaraq, 2009-cu ildə Heydər Əliyev Fondu Bakı şəhərində Psixo-nevroloji Uşaq Mərkəzini inşa etmişdir. Müasir avadanlıqla təchiz edilmiş aktiv terapiya, masaj, müayinə, yataq, yemək otaqları mərkəzdə müalicə olunan uşaqların sağlamlığının tezliklə bərpa edilməsinə şərait yaradır.















Səhiyyə təsisatlarının inkişafı məqsədi ilə ölkənin müxtəlif bölgələrində xəstəxanaların, poliklinikaların, təcili yardım stansiyalarının, apteklərin yenidənqurma işləri həyata keçirilir. Tibb müəssisələri müasir avadanlıq, təcili yardım maşınları ilə təmin olunur.

Qastroenteroloji və pulmolonoji profilli tibb ocağı olan "Təbəssüm" uşaq sanatorisində Fondun təşəbbüsü ilə təmir işləri aparılmış və müəssisə 2009-cu ilin yanvarında istifadəyə verilmişdir.



Psixo-nevroloji Uşaq Mərkəzi





Fond dünyanın bir sıra aparıcı səhiyyə şirkətləri ilə əməkdaşlıq edir. "Fresenius Medical Care", "Karl-Storz", "Servier" kimi nüfuzlu şirkətlər tərəfindən Fonda bağışlanmış müasir tibbi avadanlıq və dərman preparatları ölkənin müvafiq tibb müəssisələrinə təqdim edilmişdir.

2004-2009-cu illər ərzində Fonda müraciət etmiş insanlara kömək göstərilməsi üçün səhiyyə müəssisələri ilə sıx əlaqə qurulmuş, 10 minə yaxın insanın müayinə və müalicəsi üçün lazımi tədbirlər həyata keçirilmişdir. Bu dövr ərzində 763 nəfərdən çox xəstə respublikanın müxtəlif tibb müəssisələrində cərrahiyyə əməliyyatı olunmuş, 90 nəfərdən çox xəstənin əməliyyat və müayinəsi isə xarici ölkələrdə aparılmışdır.









2007-ci ilin may ayında Cenevrədə Dünya Səhiyyə Təşkilatının (DST) ali orqanı olan Dünya səhiyyə assambleyasının 60-cı sessiyasında Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyeva ana, uşaq və ailə sağlamlığının qorunması və möhkəmlənməsi işində müstəsna xidmətlərinə görə mükafata layiq görülmüşdür .





# Mədəniyyət sahəsi

### "Azərbaycan muğamları" layihəsi çərçivəsində "Qarabağ xanəndələri" musiqi albomunun nəşri

2003-cü ildə Azərbaycan muğamı YUNESKO tərəfindən Bəşəriyyətin Şifahi və Qeyri-Maddi İrsinin şah əsərləri Siyahısına daxil edilmişdir.

Azərbaycan muğam sənətinin inkişafı və qorunması istiqamətində "Azərbaycan muğamları" layihəsi çərçivəsində "Qarabağ xanəndələri" musiqi albomu nəfis şəkildə nəşr olunmuşdur. Albomda muğam korifeylərinin köhnə lent yazıları, musiqi ustadlarının bənzərsiz ifaları toplanmışdır. Albomun təqdimat mərasimi 2005-ci ilin martında Parisdə, YUNESKO-nun qərargahında, xoşməramlı səfirlərin illik toplantısında keçirilmişdir.





### Beynəlxalq Muğam Mərkəzi

Azərbaycan mədəniyyətinin incisi olan muğamın dünyada geniş təbliği məqsədi ilə Bakı şəhərində Beynəlxalq Muğam Mərkəzi yaradılmışdır. Mərkəzin təməlqoyma mərasimi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və YUNESKO-nun Baş direktoru cənab Koişiro Matsuuranın iştirakı ilə 2005-ci il avqustun 24-də keçirilmişdir.

2008-ci ilin dekabr ayında istifadəyə verilən Beynəlxalq Muğam Mərkəzində gənc ifaçılar Azərbaycan musiqi mədəniyyətinin mühüm qismini təşkil edən muğam sənətinin incəliklərinə yiyələnirlər. Mərkəzdə dünya ictimaiyyətinin diqqətini Azərbaycan muğam sənətinə cəlb etməyi bacarmış görkəmli muğam ustalarının konsertləri, muğam gecələri, beynəlxalq konfrans və festivallar təşkil olunur.







Heydər Əliyev Fondu regionlarda Muğam Mərkəzlərinin yaradılmasına dəstək verir. 2008-ci ilin sentyabrında Fondun təşəbbüsü ilə Ağcabədi şəhərində Qarabağ Muğam Mərkəzi inşa olunmuşdur.

## Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi

2008-ci ilin mayında Bakıda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və YUNESKO-nun Baş direktoru cənab Koişiro Matsuuranın iştirakı ilə təməlqoyma mərasimi keçirilmiş Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi Heydər Əliyev Fondu, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və YUNESKO-nun dəstəyi ilə inşa olunur. Sərgi salonu, kitabxana, elmi xalçaçılıq toxuma və tikmə mərkəzi, suvenir və kitab köşkü, danışıqlar və audiovizual təqdimatlar otağı, böyük tərtibat imkanlarına malik sərgi zonası olacaq binada həmçinin açıq havada heykəllərin və xalçaların nümayişi üçün sahə də nəzərdə tutulmuşdur.








## Müasir İncəsənət Muzeyi

2009-cu ilin martında Fondun təşəbbüsü ilə Bakıda Müasir İncəsənət Muzeyi açılmışdır. Muzeydə Azərbaycanın gənc, avanqard üslubda işləyən rəssam və heykəltəraşlarının 800-dən çox işi toplanmışdır. Burada həmçinin Azərbaycanın xalq rəssamlarının əsərləri, rəngkar və heykəltəraşların işləri də sərgilənir. Qərbi Avropa incəsənəti salonunda isə dünya klassiklərinin rəsm əsərləri və əl işləri öz əksini tapmışdır.









## Heydər Əliyev muzey və muzey mərkəzləri

Fondun təşəbbüsü ilə respublikanın müxtəlif regionlarında və iri şəhərlərində Heydər Əliyevin zəngin həyat və fəaliyyətindən, Azərbaycanın müasir tarixindən və zəngin mədəni irsindən bəhs edən, müasir avadanlıq və lazımi ədəbiyyatla təchiz edilmiş muzey və muzey mərkəzləri yaradılmışdır. Mərkəzlərdə beynəlxalq konfrans və simpoziumlar, treninq, seminar və "dəyirmi masa"lar keçirilir. Muzeylərdə gənclər üçün şahmat, kompyuter, xalçaçılıq, təsviri və tətbiqi incəsənət, heykəltəraşlıq dərnəkləri fəaliyyət göstərir.








## Muğam müsabiqələri və beynəlxalq festivallar

2005-ci ildə görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin anadan olmasının 120 illik yubileyi münasibətilə Heydər Əliyev Fondu tərəfindən keçirilən muğam müsabiqəsi Azərbaycan



MƏDƏNİYYƏT SAHƏSİ



tamaşaçıları ilə yanaşı, xaricdə yaşayan soydaşlarımız tərəfindən razılıqla qarşılanmışdır. Qədim muğam sənətinin qorunub saxlanılması, zəngin tarixə malik ifaçılıq sənətinin gələcək nəsillərə çatdırılması, yeni ifaçılar nəslinin yetişdirilməsi məqsədi ilə Fond 2007-ci ildə növbəti muğam müsabiqəsini keçirmişdir.




UĞAM
2007



2005-2008-ci illər ərzində Heydər Əliyev Fondu tərəfindən Bakıda dünya şöhrətli musiqiçilər D.Şostakoviç və Bülbülün yubileylərinə həsr edilmiş beynəlxalq festivallar, Mstislav Rostropoviç adına I və II Beynəlxalq musiqi festivalları keçirilmişdir.








**"Muğam aləmi" Beynəlxalq Muğam Festivalı**

2009-cu il martın 18-dən 25-dək Bakıda Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilati dəstəyi ilə dünyada ilk dəfə olaraq "Muğam aləmi" Beynəlxalq Muğam Festivalı keçirilmişdir. Festivala Suriya, İraq, Mərakeş, Özbəkistan, İran, Tacikistan, Qazaxıstan, Misir, Türkiyə, İtaliya və Almaniyadan olan 70-ə yaxın iştirakçı qatılmışdır.






Festival çərçivəsində keçirilən I Respublika Muğam Müsabiqəsi, Beynəlxalq Muğam Müsabiqəsi və Beynəlxalq Elmi Simpoziumda muğamsevərlər, elmi tədqiqatçılar və dünyanın bir çox ölkələrindən









MƏDƏNİYYƏT SAHƏSİ




dəvət olunmuş xarici qonaqlar iştirak etmişlər. Beynəlxalq Muğam Müsabiqəsinin qalibləri Fond tərəfindən hədiyyə və diplomlarla mükafatlandırılmışlar.







Festivalı




## Tarixi-mədəniyyət abidələrinin bərpası və mədəniyyət obyektlərinin inşası

- Gəncənin sonuncu xanı Cavad xanın qəbri üzərində məqbərənin ucaldılması;
- Comərd Qəssabın məzarı və məzarüstü türbəsinin bərpası;
- Gəncə Qapılarının bərpası;
- Azərbaycanın görkəmli yazıçısı və pedaqoqu Abdulla Şaiqin ev-muzeyinin bərpası;









- Mərdəkan qəsəbəsində kütləvi kitabxana üçün binanın inşası;
- Pir Həsən ziyarətgahının əsaslı təmir-bərpası;
- Mərdəkan Mədəniyyət Sarayının yenidən qurulması;
- Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksinin yaradılması;
- Salyanda Dövlət Rəsm Qalereyasının yenidən qurulması



Pir Həsən ziyarətgahı













Heydər Əliyev Fondu nəinki Azərbaycanda, həttа onun hüdudlarından kənarda mədəniyyət abidələrinin bərpasında iştirak edir. 2007-ci ildə Fond Parisdə yerləşən və 1979-cu ildən etibarən Dünya İrsi Siyahısına salınmış Versal Sarayının parkında qorunub saxlanılan, zamanın və iqlim şəraitinin təsiri nəticəsində zədələnmiş qədim, ümumbəşər abidələrin ("Amazonka" (1685-1693, müəllif Jak Büirret) və "Qulpları favn başları ilə bəzədilmiş vaza" (1687-1705, müəllif Klod Berten)) bərpa işlərini həyata keçirmişdir.



MƏDƏNİYYƏT SAHƏSİ



2006-cı ildə Heydər Əliyev Fondu Gürcüstanın Tbilisi şəhərində yerləşən panteonda dəfn edilmiş Azərbaycanın görkəmli şəxsiyyətlərinin: şair Mirzə Şəfi Vazehin (1794-1852), yazıçı, dramaturq, filosof Mirzə Fətəli Axundzadənin (Axundov) (1812-1878), ictimai-siyasi xadim Həsən bəy Ağayevin (1875-1920), dövlət xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri Fətəli xan Xoyskinin (1875-1920) qəbirüstü abidələrinin yenidən qurulması və xiyabanın yaradılması işlərini həyata keçirmişdir.



## "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi

2006-cı ildə layihə çərçivəsində Binə qəsəbəsindəki Möhsün Səlim məscidində bərpa işləri aparılmış, Gəncə şəhərindəki Həzrəti Zeynəb məscidi yenidən qurulmuş, 2007-ci ildə isə Buzovna qəsəbəsindəki Cümə məscidində yenidənqurma işləri və Bakıdakı Pravoslav kilsəsində təmir-bərpa işləri aparılmışdır.





Roma Katolik dini icması ilə əməkdaşlıq çərçivəsində 2008-ci ildə Fond tərəfindən Bakıdakı Müqəddəs Məryəm kilsəsinin asma tavan şüşələri dini mövzuda və klassik vitraj texnikasında işlənmiş bədii şüşələrlə əvəz edilmiş, eyni zamanda məbədin fasadında keramik panno yerləşdirilmişdir.





Layihə çərçivəsində Bakıda yaşayan yəhudi uşaqları üçün "Or-Avner" Beynəlxalq Fondu ilə birgə 600 yerlik Təhsil Mərkəzi inşa edilir. Mərkəzin 30 siniflik təhsil korpusu ilə yanaşı, uşaq bağçası, üçmərtəbəli yataqxana kompleksi olacaqdır.





# Beynəlxalq əməkdaşlıq

**Fondun nümayəndəlikləri**

Heydər Əliyev Fondunun ABŞ, Rusiya Federasiyası, Rumıniya və Türkiyədə nümayəndəlikləri fəaliyyət göstərir.

2006-cı ildə Rusiya Federasiyasında açılmış nümayəndəlik Fondun ənənələrinə sadiq qalaraq mədəni və sosial yönümlü layihələr həyata keçirir. Nümayəndəlik 2008-ci ildə Moskvada əlil uşaqlar üçün xeyriyyə tədbiri, Böyük Vətən müharibəsi veteranları ilə





görüş, "Xocalı. 16 il sonra" mövzusunda elmi-praktik konfrans keçirmişdir. Nümayəndəliyin rəhbəri Leyla Əliyeva fəaliyyəti genişləndirmək məqsədi ilə Rusiyanın müxtəlif vilayətlərinə səfər edərək burada yaşayan və təhsil alan azərbaycanlı gənclərin problemləri ilə maraqlanır, onların həlli istiqamətində müəyyən tədbirlər görür. Nümayəndəliyin dəstəyi ilə mütəmadi olaraq Azərbaycan mədəniyyəti və tarixini əks etdirən sərgilər, onları təbliğ edən konsert və "dəyirmi masa"lar keçirilir.










Heydər Əliyev Fondunun Rumıniyadakı nümayəndəliyinin açılışı 2007-ci ilin sentyabrında Azərbaycan və Rumıniya prezidentlərinin iştirakı ilə keçirilmişdir. Nümayəndəlik Kluj şəhərində himayədarlıq etdiyi Ahıllar evinə 2008-ci ildə dərman ləvazimatları, 110 nəfərlik yataq və çarpayı dəstləri və zəruri qida məhsulları hədiyyə etmişdir. 2008-ci ilin iyulunda nümayəndəliyin əməkdaşları daşqından ağır zərər çəkmiş Suçeava bölgəsinə səfər etmiş, yerli əhaliyə ərzaq, geyim və dərman preparatları ilə yardım göstərmişlər.





Heydər Əliyev Fondunun ABŞ-dakı nümayəndəliyi 2008-ci ilin avqustunda fəaliyyətə başlamışdır. Həmin ilin avqustunda Kanadanın Niaqara-on-de-Leyk şəhərində keçirilən Niaqara Beynəlxalq kamera musiqisi festivalı çərçivəsində nümayəndəliyin dəstəyi ilə Azərbaycan muğamına həsr edilmiş təqdimat və konsert keçirilmişdir.

## BMT-nin İnkişaf Proqramı ilə əməkdaşlıq

Heydər Əliyev Fondu BMT-nin İnkişaf Proqramı ilə birgə görmə qabiliyyətini itirmiş və görmə qabiliyyəti zəif olan insanlar üçün informasiya kommunikasiya texnologiyalarına çıxışın təmin edilməsinə dair layihə həyata keçirmişdir. Layihə çərçivəsində Kor və zəifgörən uşaqlar üçün Respublika İnternat Məktəbində model











İKT sinfi, audiokitabxanalar yaradılmış, kitabxana fondunun audioformata çevrilməsi üçün səsyazma studiyası qurulmuş, mövcud kitabxanalarda Brayl şriftli audiokitabların bərpası, internetə çıxış, əsaslı təlim kursları kimi xidmətləri təmin edən kompyuter mərkəzi yaradılmışdır.

Fiziki qüsurlu insanların informasiya kommunikasiya texnologiyalarına çıxışının təmin edilməsi layihəsi çərçivəsində Fond Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və BMT-nin İnkişaf Proqramı ilə birgə 2009-cu ildə Gəncə şəhərində kor və görmə qabiliyyəti zəif olan insanlar üçün regional kompyuter mərkəzi inşa edərək müasir avadanlıqla təmin etmişdir.








## YUNESKO ilə əməkdaşlıq

2004-cü il avqustun 13-də Azərbaycan şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki səylərinə görə Fondun Prezidenti Mehriban Əliyeva YUNESKO-nun Xoşməramlı səfiri adına layiq görülmüşdür.

2005-ci ilin sentyabr ayında Fondun YUNESKO ilə əməkdaşlığı çərçivəsində təşkilatın qərargahında görkəmli akademik Yusif Məmmədəliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilmişdir.

2006-cı ilin oktyabr ayında YUNESKO-nun 60 illiyi münasibətilə Parisdə Azərbaycan həftəsi çərçivəsində Azərbaycan mədəniyyəti









günləri keçirilmişdir. YUNESKO-nun sərgi salonunda Azərbaycanın gözəl təbiətini, zəngin mədəniyyətini, tarixini, xalqımızın adət-ənənələrini, mədəni irs nümunələrini, azsaylı xalqların həyatını əks etdirən fotoşəkillərdən ibarət sərgi təşkil olunmuşdur.

2007-ci ilin iyun ayında YUNESKO, Azərbaycan Hökuməti və Heydər Əliyev Fondu arasında ölkəmizdə peşə təhsilinin inkişafını nəzərdə tutan layihənin icra planına dair saziş imzalanmışdır. Turizm və mehmanxana işini əhatə edəcək layihə müəllimlərin hazırlanmasını, dərslik və proqramların tərtibini, eləcə də peşə təhsili sahəsində mehmanxana təsərrüfatı, turizm, ingilis dili, kadrların ixtisasartırma və təlim resursları üzrə kurrikulumların təhlili və yeniləşdirilməsini nəzərdə tutur.



2008-ci ilin may ayında Fondun dəstəyi ilə Parisdə, YUNESKO-nun mənzil-qərargahında xoşməramlı səfirlərin illik yığıncağı çərçivəsində gənc istedadların çıxışlarından ibarət "Azərbaycanın xoşməramlı mələkləri" adlı konsert proqramı təqdim edilmişdir. Konsert proqramından əvvəl azərbaycanlı uşaqların rəsmlərindən ibarət sərgi açılmışdır.



2009-cu ilin mart ayında Bakıda Heydər Əliyev Fondu ilə YUNESKO arasında Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə 2003-cü il Konvensiyanın həyata keçirilməsi ilə bağlı strateji məqsədlərə nail olmaq üçün əməkdaşlığın möhkəmləndirilməsinə dair Niyyət protokolu imzalanmışdır.

## İSESKO ilə əməkdaşlıq

İslam Ölkələri Elm, Təhsil və Mədəniyyət Təşkilatı (İSESKO) ilə Heydər Əliyev Fondunun əməkdaşlığı 2005-ci ildən başlamışdır. Sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə








genişmiqyaslı fəaliyyətinə, uşaqlara diqqətinə, onların yaşayış şəraitinin yaxşılaşmasına, təhsilə böyük dəstəyinə görə Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyeva 2006-cı il noyabrın 24-də İSESKO-nun Xoşməramlı səfiri adına layiq görülmüşdür.

2007-ci ilin aprel ayında Fondla İSESKO arasında əməkdaşlıq haqqında Protokol imzalanmışdır. 5 il müddətinə əməkdaşlığın əsas prinsiplərini tənzimləyən Protokol elm, mədəniyyət, təhsil sahəsində əlaqələrin inkişafını, birgə layihələrin işlənib həyata keçirilməsini, fəaliyyətin əlaqələndirilməsini nəzərdə tutur.

## BMT-nin Əhali Fondu (UNFPA) ilə əməkdaşlıq

2008-ci ilin yanvar ayında Heydər Əliyev Fondu, BMT-nin Əhali Fondu (UNFPA) və Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi arasında "XXI əsrdə qadınlara qarşı zorakılıq əleyhinə" birgə layihəyə dair sənədlər imzalanmışdır. 20 ay müddətində həyata keçirilməsi nəzərdə tutulan layihə Azərbaycanın bütün ərazisini əhatə edir. Layihənin əsas məqsədi əhalinin maarifləndirilməsi, qadın və uşaqların məişət zorakılığından müdafiə olunması, erkən nikahların qarşısının alınması və ailədə baş verən zorakılığın uşaqlara təsirinə yol verilməməsidir.





## ABŞ-ın "Vital Voice" qeyri-hökumət humanitar təşkilatı ilə əməkdaşlıq

2006-cı ilin dekabr ayında Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın ABŞ-a işgüzar səfəri çərçivəsində senator Key Beyli Hatçinsonun həmsədri olduğu "Vital Voice" qeyri-hökumət humanitar təşkilatı ilə əməkdaşlığa dair memorandum imzalanmışdır. Siyasət, iqtisadiyyat, sosial və digər sahələrin inkişafına töhfə verən qadınları dəstəkləyən və dünyanın nüfuzlu təşkilatları ilə əməkdaşlıq edən bu təşkilat 150-dən çox ölkədən olan 5 milyondan artıq qadını öz ətrafında birləşdirir.









## ABŞ-ın "Save the Children" təşkilatı ilə əməkdaşlıq

Heydər Əliyev Fondu 2008-ci ilin yanvar ayında ABŞ-ın "Save the Children" (Uşaqların Xilası) təşkilatı ilə birgə Anlaşma memorandumu imzalamışdır. Anlaşma memorandumu uşaqların fiziki və psixososial kömək vasitəsilə müdafiəsi, onlara zəruri qayğının göstərilməsi, təhsil almasının təmin edilməsi, sağlamlığı və keyfiyyətli qidalanması sahəsində birgə fəaliyyəti nəzərdə tutur.

2008-ci ilin mart ayında "Save the Children" təşkilatının Şüvəlanda inşa etdiyi Uşaqlara və Ailələrə Dəstək Mərkəzinə Fond tərəfindən nəqliyyat vasitəsi hədiyyə edilmişdir.

## Polşa Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyi ilə əməkdaşlıq

2008-ci ilin avqustunda Heydər Əliyev Fondu və Polşa Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyi arasında əməkdaşlıq haqqında saziş imzalanmışdır. Bu əməkdaşlıq çərçivəsində Fond və Polşanın Kiçik Qrantlar Fondunun maliyyə dəstəyi ilə Samux rayonunda 220 yerlik yeni məktəb binası inşa olunmuş, müasir avadanlıqla təmin edilmiş və 2009-cu ilin yanvarında istifadəyə verilmişdir.



## Rusiyanın "Uralsib" maliyyə korporasiyası ilə əməkdaşlıq

2008-ci ilin oktyabrında Heydər Əliyev Fondunun təşəbbüsü ilə Bakıda serebral iflic xəstəliyindən əziyyət çəkən uşaqların müasir metodlarla müayinə və müalicəsinə və cəmiyyətə inteqrasiyasına imkan yaradacaq Uşaq Serebral İflici Reabilitasiya Mərkəzinin təməli qoyulmuşdur. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün nəzərdə tutulmuş reabilitasiya mərkəzi 2007-ci ilin noyabr ayında Rusiyanın "Uralsib" maliyyə korporasiyası ilə imzalanmış anlaşma memorandumuna əsasən inşa olunur.

## "BibliObraz-2007" beynəlxalq festivalı

Fond 2007-ci ilin oktyabrında Rusiyanın birinci xanımının himayəsi ilə Rus dilinin inkişafı Mərkəzi tərəfindən Moskvada təşkil edilmiş "BibliObraz-2007" beynəlxalq festivalında iştirak etmişdir. Dünyanın 22 ölkəsinin iştirak etdiyi festivala maraqlı və əhatəli proqram təqdim edən Heydər Əliyev Fondu sərgi ekspozisiyaları və müxtəlif guşələr vasitəsilə tamaşaçıları müasir Azərbaycanın keçmişi və bu günü, zəngin mədəniyyəti ilə yaxından tanış etməyə nail olmuşdur. Festival çərçivəsində iştirakçılar "Azərbaycan" stendinin ekspozisiyasında Azərbaycan ədəbiyyatı klassiklərinin rus və başqa dillərdə nəşr edilmiş əsərləri, Fondun yeni nəşrləri, mədəniyyətimizə və Qarabağ probleminə həsr olunmuş DVD və CD-lər, əl işi olan gəlinciklər, miniatürlər, mini-xalçalar, musiqi alətləri, mis qablar və başqa eksponatlarla tanış olmuşlar.







## "Xocalı soyqırımı" haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması

Azərbaycan həqiqətlərini və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsil mahiyyətini beynəlxalq ictimaiyyətə çatdırmağa xüsusi önəm verən Heydər Əliyev Fondu 2007-ci ildən başlayaraq hər il dünyanın bir sıra böyük şəhərlərində (Moskva, Berlin, Strasburq, Brüssel, Buxarest, Cenevrə, Ankara, İstanbul, Paris, Praqa, Vaşinqton, Nyu-York, Varşava, London, Haaqa, Dubay, Kiyev və Tbilisidə) Xocalı soyqırımının ildönümünə həsr olunmuş aksiyalar həyata keçirir.














Keçirilən anma mərasimlərində Fondun hazırladığı "Xocalı soyqırımı" filmi, ermənilərin Xocalıda törətdikləri vəhşilikləri əks etdirən fotoşəkillər və müxtəlif illərdə xarici ölkələrin nüfuzlu nəşrlərində Xocalı faciəsi haqqında dərc edilmiş materiallar, Fondun ümumtəhsil məktəbləri və uşaq evlərində keçirdiyi "Xocalı uşaqların gözü ilə" mövzusunda rəsm müsabiqəsinin seçmələrindən ibarət ekspozisiyalar nümayiş etdirilir. Fond tərəfindən nəşr edilmiş "Qarabağ həqiqətləri" toplusu və "Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması" kitabı paylanılır.

## Beynəlxalq konfranslar

### "YUNESKO-Azərbaycan: gələcəyə körpü" mövzusunda beynəlxalq konfrans

"YUNESKO-Azərbaycan: gələcəyə körpü" konfransı YUNESKO ilə birgə 2005-ci ilin avqustunda Azərbaycanda keçirilmişdir. Konfransda Azərbaycanın təhsil sistemində aparılan islahatlar, Avropa təhsil sisteminə inteqrasiya və digər məsələlər müzakirə olunmuşdur.






**"Avrasiyada mədəniyyət müxtəlifliyi: Azərbaycan - sivilizasiyalararası dialoqun keçmişi və bu günü" mövzusunda XIII beynəlxalq konfrans**

Latın Mədəniyyəti Akademiyası ilə birgə 2006-cı ilin aprelində Bakıda "Azərbaycan: sivilizasiyalararası dialoqun keçmişi və bu günü" mövzusunda XIII beynəlxalq konfrans keçirilmişdir. Konfransda Qərb və Şərq mədəniyyəti dialoqu çərçivəsində məruzələr dinlənilmiş, qonaqlar yüksək tolerantlıq mədəniyyəti ilə seçilən Azərbaycan haqqında ətraflı məlumat əldə etmişlər.

**"Orta əsr əlyazmalarında tibb və əczaçılıq" mövzusunda I beynəlxalq konfrans**

2006-cı ilin iyununda Vaşinqton Elmlər Akademiyası ilə birgə "Orta əsr əlyazmalarında tibb və əczaçılıq" mövzusunda I beynəlxalq konfrans keçirilmişdir. Konfrans günlərində Azərbaycan Milli Elmlər Akademiyasında saxlanılan, YUNESKO-nun Dünya







Yaddaşı Proqramının Beynəlxalq reyestrinə daxil olan əlyazmalar və dünya tibb tarixi üçün əhəmiyyət kəsb edən digər əlyazmaların sərgisi olmuşdur.

**"Gənclər sivilizasiyaların alyansı naminə" beynəlxalq konfransı**

2007-ci ilin noyabrında Bakıda İslam Konfransı Təşkilatının Dialoq və Əməkdaşlıq Naminə Gənclər Forumu ilə Heydər Əliyev Fondu tərəfindən təşkil olunmuş "Gənclər sivilizasiyaların alyansı naminə" konfransı keçirilmişdir. Fondun prezidenti Mehriban Əliyeva təhsil, elm, gənclər, mədəniyyətlərarası dialoq sahəsində və Azərbaycan mədəniyyətinin dünyada təbliğində xidmətlərinə görə İslam Konfransı Gənclər Forumunun "Gəncliyin inkişafı uğrunda Qlobal Səfir" adına layiq görülmüşdür. Qərbi və Şərqi Asiya ölkələrindən gənclərin iştirak etdiyi beynəlxalq konfrans günlərində elm, mədəniyyət və sosial sahələrdə müxtəlif sivilizasiyaların tarixi, qarşılıqlı münasibətləri haqqında məruzələr edilmişdir. Tədbirin






sonunda beynəlxalq konfransın yekun sənədi - "Nəsillərarası Alyans" adlı Bakı Bəyannaməsi qəbul edilmişdir.

## "Avropada subregional çərçivədə savadlılıq problemlərinə baxış: tərəfdaşlıq əlaqələrinin qurulması və innovativ yanaşmaların tətbiqinə dəstək" mövzusunda konfrans

2008-ci ilin mayında Bakıda Dünyada Savadlılığın Dəstəklənməsi üzrə YUNESKO-nun regional konfransları silsiləsindən "Avropada subregional çərçivədə savadlılıq problemlərinə baxış: tərəfdaşlıq əlaqələrinin qurulması və innovativ yanaşmaların tətbiqinə dəstək" mövzusunda konfransı keçirilmişdir. Konfransda YUNESKO-nun Baş Direktoru cənab Koişiro Matsuura, YUNESKO-nun xoşməramlı səfirləri, Hollandiya şahzadəsi xanım Laurentien, habelə bir sıra ölkələrin təhsil nazirləri və çoxsaylı mütəxəssisləri, Azərbaycan hökumətinin nümayəndələri, xarici ölkələrin Bakıdakı səfirləri iştirak etmişlər.

İki gün davam edən konfransda müxtəlif mövzularda "dəyirmi masa"lar keçirilmişdir. Burada savadsızlıq probleminə daha geniş yanaşmağın vacibliyi vurğulanmış, təcrübələrdən danışılmış, Avropa regionunda savadın qiymətləndirilməsi üzrə məlumatların yaradılması və istifadəsi üzrə beynəlxalq və yerli planlar müzakirə edilmişdir.







## "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda beynəlxalq forum

2008-ci ilin iyununda Fondun təşəbbüsü, YUNESKO-nun və İSESKO-nun dəstəyi ilə Bakıda "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda beynəlxalq forum keçirilmişdir. Forumda dünyanın müxtəlif ölkələrindən 300-dən çox nümayəndə, o cümlədən bir neçə ölkənin birinci xanımları, İSESKO-nun Baş Direktoru, YUNESKO-nun xoşməramlı səfirləri iştirak etmişlər. Bakı forumu İnsan Hüquqları üzrə Dünya






Bəyannaməsinin 60-cı ildönümünə təsadüf etmişdir. Beynəlxalq forumun sonunda Bakı Bəyannaməsi qəbul olunmuşdur. Bəyannamədə dünya dövlətləri münaqişələrin həllində və sülhməramlı proseslərdə qərarların qəbulunda qadınların iştirakının artırılmasına çağırılır.

### Dünya gənclərinin 4-cü məşğulluq Sammiti

2008-ci ilin sentyabrında Bakıda Dünya gənclərinin 4-cü məşğulluq Sammiti (YES) keçirilmişdir. Sammitin məqsədi gənclərin işsizlik və səmərəli məşğulluq problemlərinin həlli istiqamətində dünyada daha fəal iş aparılmasına nail olmaq idi. Yüzdən çox ölkədən 600 nümayəndənin, o cümlədən Misirin birinci xanımı Syuzan Mübarəkin qatıldığı Bakı sammitində 2012-ci ilə qədər gənclər üçün 2 milyon yeni iş yerinin yaradılması, xüsusi dövlət proqramlarının qəbul edilməsi və icrası, ətraf mühit problemlərinin həllində gənc liderlərin iştirakı, sahibkarlığın cəmiyyətin inkişafında rolu və digər məsələlər müzakirə olunmuşdur.





# Sosial sahə

Heydər Əliyev Fondunun sosial sahədəki layihələri arasında Qaradağ rayonu Lökbatan qəsəbəsində 20 min sakinin su təminatının yaxşılaşdırılmasına imkan verən su kəmərinin çəkilişini, Şamaxı şəhərində müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri üçün 16 mənzilli yaşayış binasının inşasını, istilik sistemi, ev əşyaları və zəruri avadanlıqla təmin edilməsini xüsusi qeyd etmək lazımdır.

2004-2009-cu illər ərzində Heydər Əliyev Fondu infrastruktur layihələri – Əzizbəyov rayonunun Zirə, Binə, Türkan, Qala və digər qəsəbələrinə yolların çəkilməsini, Binə qəsəbəsində yardımçı stansiyanın yenidən qurulmasını, qəsəbələrin su təchizatının yaxşılaşdırılmasını, parkların salınmasını həyata keçirmişdir. Fond dini və tarixi-mədəniyyət obyektlərinin ətraf ərazisini abadlaşdırmış, yaşıllıqlar salmış, insanların asudə vaxtlarının səmərəli keçirməsi üçün parklarda lazımi şərait yaratmışdır.







Fond Böyük Vətən müharibəsi veteranlarını da daim diqqətdə saxlayır, müntəzəm olaraq onların problemləri ilə maraqlanır, qayğı göstərir.

Fond valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün mütəmadi olaraq xeyriyyə aksiyaları keçirir. Aksiyalar çərçivəsində körpələr və uşaq evlərinə, internat məktəblərinə müxtəlif yardım və hədiyyələr göndərir, uşaqlar üçün konsert proqramları və əyləncəli tədbirlər təşkil edir.

Fond hər il orta məktəblərdə təhsildə xüsusilə fərqlənən, uşaq evlərində və internat məktəblərində tərbiyə alan, qaçqın və məcburi köçkün, şəhid ailələrindən olan, yetim və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün Yeni il və Novruz şənlikləri keçirir. Bundan əlavə, Qurban və Ramazan bayramlarında uşaq evləri və internat məktəblərinə bayram hədiyyələri göndərilir.











Heydər Əliyev Fondu əlillərin cəmiyyətə inteqrasiyasına, onların istedadlarının üzə çıxarılmasına və inkişaf etdirilməsinə, əməklərinin qiymətləndirilməsinə mühüm əhəmiyyət verir. 2007-ci ilin oktyabrında Fondun təqdimatı ilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı Azərbaycandan 15 nəfər əlil ixtiraçıya mükafatların verilməsini həyata keçirmişdir.

Hərbi vətənpərvərlik ideyalarının təbliği məqsədi ilə Heydər Əliyev Fondu 2006-2008-ci illərdə Azərbaycan tarixi ilə bağlı məlumatların, o cümlədən hərbçilər üçün yararlı olacaq bilgilərin yer aldığı "Hərbçinin qeyd və yaddaş kitabçası"nı çap etmişdir. Fond hərbi hissələrə baş çəkərək onlara hərbi təlim plakatları və müxtəlif növ məişət texnikası hədiyyə etmişdir.






# Elm və texnologiya sahəsi

"Azərbaycan" portalı istifadəçilərinin illər üzrə statistikası




Azərbaycan həqiqətlərinin internet şəbəkəsi vasitəsilə dünyaya yayılması və xalqımızın min illər boyu yaratdığı maddi-mənəvi dəyərlərin dünyaya tanıdılması məqsədi ilə 2005-ci ildə Fond tərəfindən materialların həcminə, zənginliyinə və əhatəliliyinə, habelə istifadə olunmuş internet texnologiyalarına görə ölkəmizdə












analoqu olmayan "Azərbaycan" internet portalı yaradılmışdır. Portal "Xəbərlər", "Ümumi məlumat", "Təbiət", "Tarix", "İqtisadiyyat", "Mədəniyyət", "Cəmiyyət", "Dövlət hakimiyyəti", "Azərbaycan beynəlxalq aləmdə", "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi", "İnzibati-ərazi vahidləri" və "Xəritələr" bölmələrindən ibarətdir.

Fond 2005-ci ildən başlayaraq Azərbaycan, ingilis və rus dillərində Heydər Əliyevin və akademik Zərifə Əliyevanın həyat və fəaliyyətlərinə həsr olunmuş saytlar, həmçinin Fondun fəaliyyətini əks etdirən sayt yaradaraq ictimaiyyətin istifadəsinə vermişdir.

2008-ci ildə Fond ümummilli lider Heydər Əliyevin və görkəmli həkim-oftalmoloq, akademik Zərifə Əliyevanın 85 illik yubileyləri ərəfəsində onların həyat və fəaliyyətlərindən bəhs edən multimedia diskləri hazırlamışdır.





# İdman sahəsi

Heydər Əliyev Fondu uşaq və yeniyetmələrdə idmana maraq aşılamaq, onları sağlam ruhda tərbiyə etmək istiqamətində müxtəlif layihələr həyata keçirir. Fondun təşəbbüsü ilə inşa olunan orta məktəb və məktəbəqədər müəssisələrdə idman zalları, futbol meydançaları, yeni salınan parklarda mini stadionlar, idman qurğuları ilə təchiz olunmuş sahələr yaradılır. İdmana dair bir sıra əyani vəsaitlər və nəşrlər buraxılır.












Fondun dəstəyi ilə Bakıda 2007-ci ilin may ayında ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Prezident kuboku" ikinci beynəlxalq şahmat festivalı və 2008-ci ilin mayında üçüncü beynəlxalq şahmat festivalı keçirilmişdir. Dünyanın müxtəlif ölkələrindən şahmatçıların qatıldığı festivallarda beynəlxalq dərəcəli qrossmeyster və məşhur idman ustaları da iştirak etmişlər.

Müstəqillik illərində Olimpiya və Paralimpiya oyunlarında medal qazanmış Azərbaycan idmançıları Heydər Əliyev Fondunun aylıq təqaüdlərinə və diplomlarına layiq görülmüşlər.





# Nəşrlər

2005-2007-ci illər ərzində Fondun dəstəyi ilə "Görkəmli şəxsiyyətlərin həyatı" silsiləsindən Azərbaycan, rus, ingilis və fars dillərində "Heydər Əliyev" kitabı nəşr edilmişdir. 2008-ci ilin noyabr ayında ümummilli liderin kəlamları toplanmış ikicildlik "Heydər Əliyev. Müdrik fikirlər" kitabı işıq üzü görmüşdür.

2006-cı ildə Azərbaycan həqiqətləri haqqında məlumatların yayılması məqsədi ilə ingilis, fransız, alman, rus, macar dillərində "Qarabağ həqiqətləri" bukletlər toplusu nəşr olunmuşdur. Qarabağın tarixi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ






münaqişəsinin başlanması, onun nəticəsində ölkəmizə dəyən ziyan, Xocalı faciəsi, ermənilərin dünyanın müxtəlif ölkələrində törətdiyi terror aktları haqqında faktları əks etdirən bukletlər indiyədək bir çox xarici ölkələrdə yayılmışdır.

2006-cı ildə nəşr olunmuş "Müharibə və tarixi-mədəniyyət abidələrimiz" kitabında Azərbaycanın işğal olunmuş ərazilərindəki ziyarətgahlar və digər tarixi-mədəniyyət abidələri haqqında ətraflı məlumat verilir.

"Qarabağ həqiqətləri" silsiləsinin davamı olaraq 2007-ci ildə Heydər Əliyev Fondu "Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması" kitabını ingilis dilində nəşr etdirmişdir. Kitaba işğal olunmuş rayonlarımızın hər birində mədəni sərvətlərimizin siyahısı, xəritələr, habelə Ermənistan ərazisində və işğal altındakı bölgələrimizdəki tarixi və mədəniyyət abidələrimizin əvvəlki və indiki vəziyyətini əks etdirən videomateriallar əlavə olunmuşdur.

2005-2007-ci illər ərzində Fondun dəstəyi ilə rus alimi, yazıçı-tarixçi, professor Rudolf İvanovun "Bəyazidin müdafiəsi: həqiqət və yalan", "Əlahəzrətin general-adyutantı. Hüseyn xan Naxçıvanski haqqında dastan", "Sovet İttifaqı adından" kitabları rus dilində nəşr olunmuşdur.






2005-2008-ci illər ərzində Linda Li Rattonun "Yuxuların çin olduğu yerdə", Murad Adcının "Türklər və dünya: munis tariximiz", S.Frederik Starr və Svant E.Kornellin "Bakı-Tbilisi-Ceyhan boru kəməri: qərbə açılan neft pəncərəsi", Rudolf İvanovun "Əlahəzrətin general-adyutantı. Hüseyn xan Naxçıvanski haqqında dastan" kitabları Azərbaycan dilinə tərcümə edilmişdir. 2006-cı ildə yazıçı, alim və pedaqoq Mir Cəlal Paşayevin romanları, hekayələr kitabı türk dilində nəşr edilərək oxuculara təqdim olunmuşdur. İSESKO ilə əməkdaşlıq çərçivəsində 2006-cı ildə görkəmli şərqşünas alim Aida İmanquliyevanın "Yeni ərəb ədəbiyyatının korifeyləri" kitabı ərəb dilinə tərcümə olunaraq nəşr edilmişdir.



N Ə Ş R L Ə R



2005-ci ildə Heydər Əliyev Fondu tanınmış musiqiçilər M.Rostropoviç və xanımı Q.Vişnevskayanın 50 illik birgə fəaliyyətinə həsr edilmiş musiqi albomu hazırlamışdır.

Fond 2007-ci ildə Azərbaycanın dahi şəxsiyyətlərinin dəfn olunduğu və xarici ölkələrdən gələn qonaqların hər zaman üz tutduğu Fəxri xiyaban haqqında kitab nəşr etdirmişdir.

2008-ci ildə Xalq artisti, muğam ustadı Arif Babayevin, Xalq artisti, mahir pianoçu, cazmen Rafiq Babayevin, Xalq artisti, virtuoz kamançaçalan Habil Əliyev və Xalq artisti Əlibaba Məmmədovun yaradıcılığından bəhs edən musiqi albomları hazırlamışdır.

2008-ci ilin sentyabrında Heydər Əliyev Fondu Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi ilə birgə Azərbaycan cizgi filmləri toplusunu hazırlamışdır.





2008-ci ilin sentyabr ayında "Üzeyir dünyası" və Azərbaycanın muğam ensiklopediyası" layihələrinin təqdimatı olmuşdur. "Üzeyir dünyası" toplusuna "Ömür salnaməsi", "Üzeyir Hacıbəyli ensiklopediyası", "Bədii və publisistik əsərləri" kitabları, "Leyli və Məcnun", "Koroğlu", "O olmasın, bu olsun" operaları və musiqili komediyalarının klavir, libretto və CD-ləri daxildir.

İki cilddən ibarət olan "Azərbaycanın muğam ensiklopediyası"nda, ümumilikdə, 1300-ə yaxın mətn, 200-dən çox fotoşəkil vardır. Keçən əsrin əvvəllərində ilk dəfə lentə alınan muğamlardan başlayaraq








2007-ci il televiziya muğam müsabiqəsinin qaliblərinin çıxışlarına qədər 260 video və audio materiallar MP3 formatında 125 diskdən ibarət 5 albomda toplanmışdır.



2008-ci ilin oktyabrında Azərbaycan, rus və ingilis dillərində "Şuşa qrafika" kitabı nəşr olunmuşdur.

2009-cu ilin mayında uşaq mahnılarından ibarət multimedia diski işıq üzü görmüşdür.

2009-cu ilin mayında görkəmli Azərbaycan alimi və dövlət xadimi Nəsirəddin Tusinin fəlsəfi baxışların zənginliyi və rəngarəngliyi ilə seçilən "Əxlaqi-Nasiri" əsəri nəfis tərtibatda nəşr edilmişdir. 2009-cu ildə "Qabusnamə" kitabı rus dilinə tərcümə edilərək çap olunmuşdur.

2009-cu ildə muğam sənətinin inkişaf tarixindən, mövcud muğam formalarından və muğamın ifa olunduğu musiqi alətlərindən bəhs edən multimedia diskləri hazırlanmışdır.






HEYDƏR ƏLİYEV FONDU

2009
1079

880